# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Oktyabrın 28-də düşmənin Bərdəyə raket zərbəsi endirməsindən dərhal sonra Ermənistanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Şuşan Stepanyan "Twitter" hesabında bunu danaraq "cəfəngiyyat və yalan" olduğunu yazmışdı. Almaniyanın nüfuzlu "Sueddeutsche Zeitung" nəşri isə əsl yalançının Ermənistan tərəfi olduğunu ifşa edib.

Qəzetin yazdığına görə, zərbə anında alman müxbirlər hadisə yerində olub və baş verənləri öz gözləri ilə görüblər: "Ermənistan Müdafiə Nazirliyi hücumu qəti şəkildə təkzib etdi. Nazirliyin sözçüsü bu haqda deyilənlərin cəfəng olduğunu yazdı. Lakin müxbirlərimiz Bərdənin mərkəzində qurbanların cəsədlərini və çoxsaylı raket qalıqlarını gözləri ilə görüblər. Həmin vaxt Bərdəətrafı ərazilər, o cümlədən qonşu Tərtər şəhəri də artilleriya atəşinə tutulurdu".

"Sueddeutsche Zeitung" həmçinin Bərdədə mülki əhalinin, qadın və uşaqların qətlə yetirilməsini qınayıb. Qeyd edilib ki, Ermənistan işğal etdiyi Dağlıq Qarabağda yaradılan qondarma qurumu heç özü də tanımır. Dağlıq Qarabağ və ətrafındakı 7 rayon beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınır.

Xatırladaq ki, oktyabrın 28-də Ermənistanın Bərdəyə raket hücumu nəticəsində 21 mülki şəxs həlak olub, 70-dan çox dinc sakin yaralanıb.

❖ ❖ ❖



Misirin "Aldiplomasy" portalında tədqiqatçı jurnalist Əşrəf Əbu Urafənin "Azərbaycan Ordusu Xocalı soyqırımını törədən Ermənistana ağır zərbələr endirib" sərlövhəli məqaləsi yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, müəllif 28 il əvvəl Ermənistanın Azərbaycanın Xocalı şəhərində törətdiyi soyqırımının, habelə mülki insanlara qarşı digər cinayətlərin cavabının bu gün döyüş meydanında verildiyini qeyd edib.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan hakimiyyəti Ermənistan silahlı qüvvələrinin çoxlu sayda hərbi texnikası və canlı qüvvəsinin məhv edildiyini, işğal altında olan ərazilərin azad olunduğunu bildirib. Müəllif yazıb: "Artıq oktyabrın sonuna yaxın Azərbaycan Ordusu 4 şəhəri, bir sıra qəsəbə və kəndi işğaldan azad edib. Uğurlu hərbi əməliyyat nəticəsində İranla sərhəddə təhlükəsizlik təmin olunub. Yoxsul Ermənistanın zərəri isə 2 milyard dollardan çoxdur".

Misirin "Akhbarelyom", "Nile1" və "Qalyubiyenews" informasiya portallarında isə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın Bərdə şəhərinə raket hücumu ilə bağlı bəyanatı yayılıb. Qeyd olunub ki, 4 mülki insanın, o cümlədən bir uşağın həlak olması, 13 nəfərin yaralanması daha bir ağır müharibə cinayətidir. Bu vəhşiliyə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Eyni zamanda ermənilərin dinc əhaliyə qarşı bu raket hücumunun ATƏT-in Minsk qrupu həmsədrlərinin görüşü ərəfəsində edilməsi göstərir ki, artıq üçüncü dəfədir humanitar atəşkəs razılaşmasını pozan işğalçı ölkə münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.

❖ ❖ ❖




Yalnız Malayziyada deyil, həmçinin Cənub-Şərqi Asiya regionunda ən tanınmış nəşrlərdən olan "New Straits Times" qəzeti Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna raket hücumu barədə xəbər yayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin oktyabrın 27-də yayılmış bəyanatına əsasən qeyd edilib ki, bu, son günlər ərzində beynəlxalq vasitəçilərin davamlı səyləri ilə üçüncü dəfə əldə edilən humanitar atəşkəs razılaşdırılmasını kobud şəkildə pozan Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliklərini heçə sayaraq törətdiyi növbəti müharibə cinayətidir.

Həmçinin bildirilib ki, iki ölkənin Xarici İşlər nazirlərinin Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirəcəyi görüşü ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən növbəti qanlı cinayətin törədilməsi, təcavüzkar Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının və hər vəchlə danışıqları pozmaq məqsədi güddüyünün bariz göstəricisidir.

Vurğulanıb ki, Azərbaycanın dinc əhalisinə qarşı insanlıq əleyhinə cinayətin törədilməsinə görə Ermənistanın siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Məlumatın sonunda cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verməsini təmin etmək üçün beynəlxalq ictimaiyyət qəti mövqe nümayiş etdirməyə çağırılıb.

❖ ❖ ❖



Xorvatiyanın "Zagorje" xəbər portalında Ermənistan tərəfinin ağır artilleriyadan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutması barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Tərtərin qəhrəmanlığı" sərlövhəli məqalədə atəş nəticəsində mülki əhali arasında, ölən və yaralananlar barədə statistika əksini tapıb. Bildirilib ki, hücumlar nəticəsində məktəblər və mülki xəstəxanalar da daxil olmaqla, ümumilikdə 2000-dən çox yaşayış evi və inzibati bina dağıdılıb. Xüsusilə Tərtər şəhərində böyük dağıntılar törədilib.

Müəllif eyni zamanda vurğulayıb ki, Ermənistan dinc insanlara qarşı güc tətbiq etməklə müharibə dövründə mülki şəxslərin qorunması ilə bağlı 1949-cu il Cenevrə Konvensiyasını və onun Əlavə protokollarını açıq şəkildə pozub. Ermənistanın bu cinayətləri dünya ictimaiyyəti tərəfindən qınanmalıdır.

❖ ❖ ❖




Malayziyanın BERNAMA Dövlət İnformasiya Agentliyi AZƏRTAC-a istinadla Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə rayonuna raket hücumu nəticəsində biri uşaq olmaqla, dörd nəfərin həlak olması və daha 13 nəfərin yaralanması barədə məlumat yayıb.

Məlumatda həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatına da xüsusi yer verilib. Qeyd edilib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə iki ölkənin Xarici İşlər nazirlərinin İsveçrənin Cenevrə şəhərində gözlənilən görüşü ərəfəsində baş verən terror aktı Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının əyani sübutudur və danışıqların bütün vasitələrlə pozulmasına xidmət edir.

Azərbaycan XİN-in bəyanatından gətirilmiş sitatda deyilir: "Biz beynəlxalq ictimaiyyəti günahkarların məsuliyyətə cəlb olunması üçün qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq".

Məlumatda qeyd edilir ki, ABŞ-ın vasitəçiliyi ilə bazar günü elan edilən son humanitar atəşkəs oktyabrın 26-da səhər saat 8-də qüvvəyə minməli olduğu halda, rəsmi Bakı Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini və hərbi hissələrini atəşə tutduğunu bildirib.

Bununla yanaşı, buna qədər elan edilən daha iki humanitar atəşkəsin də məhz Ermənistan tərəfindən pozulduğu məlumatda əksini tapıb.

❖ ❖ ❖




İspaniyanın qocaman qəzetlərindən biri olan La Vanguardia nəşrində "Bərdə şəhərinin atəşə tutulması nəticəsində ən azı 20 mülki şəxs həlak olub" adlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, ispan nəşri Azərbaycan Respublikasının Baş Prokurorluğunun bəyanatına istinadla diqqətə çatdırır ki, bu gün erməni qüvvələrinin kaset bombalarını tətbiq etməklə Azərbaycanın Bərdə şəhərinə hücumu nəticəsində ən azı 20 nəfər həlak olub, 40-dan çox insan isə yaralanıb.

Qeyd edilir ki, erməni qüvvələri o cümlədən çoxsaylı ticarət obyektləri də yerləşən sıx məskunlaşmış Azərbaycan rayonunu "Smerç" raketləri ilə atəşə tutub. Bir gün əvvəl, Ermənistan silahlı qüvvələrinin Bərdəyə atəş açması nəticəsində 4 nəfər həlak olub, daha 13 nəfər yaralanıb.

İspan nəşri Azərbaycan Respublikasının Baş Prokurorluğunun açıqlamasına istinadla qeyd edir ki, düşmən yaydığı dezinformasiyaların köməyi ilə çox sayda insanın həyatına son qoyduğu Bərdə cinayətlərindən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖




Türkiyənin kütləvi informasiya vasitələri Ermənistanın işğalçılıq siyasəti və ölkəmizə qarşı həyata keçirdiyi davamlı hücumlar səbəbindən bölgədə yaranmış gərginliyi gündəmdə saxlamaqda davam edir. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin oktyabrın 26-da Azərbaycan xalqına müraciəti Türkiyə KİV-i tərəfindən sürətlə yayılıb. Dövlət başçısının müraciətində səsləndirdiyi fikirlər, vəziyyətə dair mühüm məlumatlar, dünya ictimaiyyətinə ünvanlanan əhəmiyyətli mesajlar ayrı-ayrı media orqanları tərəfindən sərlövhəyə çıxarılıb, telekanallar tərəfindən subtitr vasitəsilə təqdim olunub. Azərbaycan torpaqlarının işğalçılardan azad edilməsi barədə məlumatlar Türkiyə ictimaiyyətinin gündəlik həsrətlə gözlədiyi xəbərlərdir.

Türkiyə KİV-i yazır ki, Azərbaycan torpaqlarını işğaldan azad etməkdə israrlıdır. Rəşadətli Azərbaycan Ordusu tarixi missiyasını əzmlə həyata keçirir.

Yazılarda təcavüzkar tərəfin üçüncü dəfə atəşkəs qərarına xəyanət etməsinin, dinc Azərbaycan əhalisinin davamlı atəşə tutulmasının, şəhər, qəsəbə və kəndlərimizin raket və artilleriya zərbələrinə məruz qalmasının müasir dövrün ən ağır hərbi vəhşiliyi olması barədə faktlar da təqdim edilir. O cümlədən erməni qadın və uşaqların savaşa cəlb olunması, PKK terrorçularına Azərbaycan hərbi formasının geyindirilməsi kimi halların dəyişməz erməni xisləti olduğu diqqətə çatdırılır.

❖ ❖ ❖




Fransanın "AgoraVox" portalında "Ermənistan-Azərbaycan münaqişəsi: anlamaq üçün bütün fikirlər təhlil edilməlidir" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun işğalından, Ermənistanın Gəncə şəhərində yaşayış massivini, eləcə də Mingəçevirin raket atəşinə tutulmasından bəhs olunub. Bildirilib ki, Ermənistan Azərbaycanın döyüş zonasından uzaqda yerləşən şəhərlərini atəşə tutmaqla üçüncü ölkələri münaqişəyə cəlb etməyə çalışır.

Məqalədə Qarabağın qədim və müasir tarixi haqqında məlumat verilib. XIX əsrdə Qarabağın Rusiya imperiyası tərəfindən zəbt edilməsi, İran və Türkiyədən ermənilərin bu bölgədə yerləşdirilməsi diqqətə çatdırılıb.

Qeyd edilib ki, SSRİ dağıldıqdan sonra ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlayıb.

Müəllif Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətinə toxunub, Azərbaycanın münaqişəni daim sülh yolu ilə həll etməkdə maraqlı olduğunu bildirib.

Eyni zamanda ölkəmizin Fransa və Türkiyə ilə münasibətlərinə toxunulub.

Müəllif tarixçiləri və jurnalistləri peşə deontologiyasına riayət edərək, reallığa yaxın olmaq üçün hər iki tərəfə dair oxşar tədqiqatlar aparmağı, tarixi həqiqətləri olduğu kimi əks etdirməyi məsləhət görüb.

❖ ❖ ❖




"The Jerusalem Post" qəzetində Azərbaycanda və Ermənistanda yəhudilərin yaşayışından bəhs edən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, müəllif Roman Qurieviç oktyabrın 8-də Azərbaycanda yaşayan Aşkenazi yəhudilərinin Azərbaycan Ordusunun Dağlıq Qarabağ uğrundakı müharibədə qalib gəlməsi üçün bir yerə toplaşaraq dua etdiklərini bildirir.

Yazıda qeyd olunur ki, Bakının bir çox yerlərində yəhudi alimlərinin şərəfinə abidələr ucaldılıb. Bilinən bir faktdır ki, Azərbaycanda antisemitizm yoxdur.

Məqalədə ermənilərin tarixən Azərbaycanda sülh şəraitində yaşadıqları diqqətə çatdırılır. Minlərlə azərbaycanlının isə Ermənistandakı yaşayış yerlərindən qovulduğu qeyd edilir.

Müəllif "Pew" Araşdırma Mərkəzinə istinadla Ermənistanın yəhudilərə qarşı ən az tolerant olan ölkə olduğunu vurğulayır. Hətta ermənilərin 32 faizinin yəhudiləri həmvətənləri kimi görmədiklərini bildirir. Həmçinin antisemitizm indeksinə görə Ermənistanın keçmiş sovet ölkələri arasında ən yüksək pillədə olduğu vurğulanır. Yerevandakı Holokost abidəsinin dəfələrlə vandalizm aktlarına məruz qaldığı diqqətə çatdırılır. Vurğulanır ki, Ermənistan nasizmin tərəfdarlarına milli qəhrəman kimi baxır.

Müəllif fikirlərini yekunlaşdıraraq Azərbaycan və Ermənistan haqqında bunları deyir: Müharibənin iki tərəfində biz nə görürük? Bir tərəfdə heç vaxt antisemitizmin olmadığı, İsraili enerji resursları ilə təmin edən və öz ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan, digər tərəfdə isə antisemitizmin mövcud olduğu, qapalı və monoetnik, qonşusunun torpaqlarını işğal etmiş və mülki əhalini atəşə tutan Ermənistan.

❖ ❖ ❖




Fransanın "Le Figaro" qəzetinin Bakıya ezam olunmuş xüsusi müxbiri Emmanuel Qrınzpanın "Bakı Dağlıq Qarabağa necə daxil oldu" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Dağlıq Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin üstünlüyündən bəhs edilir.

Məqalənin müəllifi qeyd edib ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsindən 2 dəfə çoxdur. Bu gün Azərbaycan 1994-cü ildə itirdiyi 20 faiz torpağının intiqamını alır.

Bildirilib ki, Azərbaycanın Ermənistan ərazilərinə müdaxilə etmək niyyəti yoxdur. Ancaq Ermənistan Gorus və Qapandan Azərbaycan ərazilərini atəşə tutur. Onların məqsədi Rusiyanı müharibəyə cəlb etməkdir. Ermənistan qonşu İranla bağlı da eyni taktikaya əl atsa da, istəyinə nail ola bilməyib.

Diqqətə çatdırılıb ki, döyüşlər yalnız Azərbaycan torpaqlarında gedir. Azərbaycan yalnız hərbi obyektləri hədəfə alır.

Müəllif qeyd edir ki, Azərbaycan Ordusuna məxsus PUA-lar bu münaqişədə əsas söz sahibidir və bu ölkənin üstünlüyünü təmin edir. Döyüşlər başlayandan dərhal sonra Ermənistanın rabitə və hava hücumundan müdafiə sistemləri, o cümlədən radarları məhv edilib. Bununla da rəsmi Bakı müharibədə əhəmiyyətli üstünlük qazanıb.

❖ ❖ ❖




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Qarabağ münaqişəsinə dair növbəti material yerləşdirilib. AZƏRTAC xəbər verir ki, bütün dünyada geniş oxucu kütləsinə malik CGTN kanalının saytındakı məqalədə Vaşinqtonun vasitəçiliyi ilə əldə edilən humanitar atəşkəsin pozulmasından bəhs olunub. Azərbaycanın Müdafiə Nazirliyinə istinadla qeyd edilib ki, atəşkəsin qüvvəyə minməsindən bir neçə dəqiqə sonra Ermənistan silahlı qüvvələri Tərtər və Laçın rayonlarını atəşə tutub.

CGTN Prezident İlham Əliyevin oktyabrın 26-da televiziya ilə xalqa müraciətində səsləndirdiyi fikirlərə toxunaraq yazır ki, Azərbaycan hansı yolla olur-olsun münaqişənin həllini istəyir. Onlayn nəşr Azərbaycan Prezidentinin "Mən təklif etmişəm ki, əgər istəyirsinizsə, sülh yolu ilə həll olunsun, yaxşı, biz dayandıraq. Ancaq dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır" fikrini də öz oxucularının diqqətinə çatdırır.

Məqalədə eyni zamanda sentyabrın 27-dən başlayan toqquşmalar nəticəsində Azərbaycan tərəfdən 65 mülki sakinin öldüyü və 297 nəfərin yaralandığı qeyd olunub.

❖ ❖ ❖




Perunun aparıcı KİV-indən olan "La Razon" və "La Republica" qəzetlərində Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın son hərbi təxribatları və Silahlı Qüvvələrimizin apardığı əks-hücum əməliyyatları ilə bağlı səfir M.Talıbovun müsahibələri dərc olunub. AZƏRTAC xəbər verir ki, müsahibələrdə münaqişənin tarixi barədə məlumat verən səfir Dağlıq Qarabağ və yeddi ətraf rayonla birlikdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini və bu ərazilərdə yaşayan 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə aparıldığını bildirib. Səfir münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamənin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin geri qaytarılmasını tələb etdiyini, ancaq Ermənistan tərəfinin 27 il ərzində həmin sənədlərin tələblərinə məhəl qoymadığını bildirib.

Sentyabrın 27-dən başlayan hərbi əməliyyatlara toxunan diplomat son təxribatların Ermənistanın növbəti təcavüz aktı olduğunu, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində qalmasının münaqişənin alovlanmasının başlıca səbəbi kimi qaldığını, əks-hücum əməliyyatlarının da Azərbaycanın beynəlxalq ictimaiyyətin bütün üzvləri, o cümlədən Peru tərəfindən tanınmış sərhədləri çərçivəsində aparıldığını vurğulayıb.

Ermənistanın mülki şəxsləri hədəfə aldığını qeyd edən səfir düşmənin əməliyyatların aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərinə, o cümlədən Gəncə şəhərinə dəfələrlə ballistik raket zərbələri endirdiyini söyləyib. Qeyd edib ki, sentyabrın 27-dən indiyədək Ermənistan silahlı qüvvələrinin şəhərləri və mülki azərbaycanlı əhalini atəşə tutması nəticəsində aralarında qadınlar və uşaqlar da olmaqla 60-dan çox dinc sakin həlak olub, bəzi uşaqlar hər iki valideynini itirib, 300-dək insanın yaralandığını, 2000-dən çox mülki infrastruktur obyekti, yaşayış binası və fərdi ev dağılaraq yararsız hala düşüb. M.Talıbov diqqətə çatdırıb ki, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq, mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Azərbaycan Silahlı Qüvvələri özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq adekvat əks-hücum tədbirləri görüb.

Eyni zamanda səfir Ermənistanın Qarabağdakı döyüşlərə Suriya, Livan, İraq kimi ölkələrdən radikal terrorçu qruplaşmaları cəlb etdiyinə dair həm erməni mətbuatında, həm də beynəlxalq qaynaqlarda xeyli sayda məlumatın yer aldığını bildirib. Diqqətə çatdırıb ki, Ermənistan rəhbərliyi dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan ermənilərin hərbi əməliyyatlarda iştirakını artıq açıq şəkildə etiraf edib.

Dağlıq Qarabağda ermənilərlə azərbaycanlıların birgə yaşayışının mümkünlüyünə toxunan səfir Azərbaycan Prezidentinin dəfələrlə burada yaşayan ermənilərlə heç bir problemimiz olmadığını və onları öz vətəndaşlarımız hesab etdiyimizi bildirdiyini, ümumiyyətlə, Azərbaycanın bütün dünyada müxtəlif millətlərdən və inanclardan olan insanların sülh şəraitində birgə yaşadığı yer olduğunu, bu səbəbdən də Roma Papası Fransisk tərəfindən bütün dünya üçün tolerantlıq modeli adlandırıldığını vurğulayıb.

Regionda sülhün formulunun Azərbaycan ərazilərinin azad edilməsi olduğunu deyən səfir Prezident İlham Əliyev hərbi əməliyyatlar başlayan gündən dəfələrlə dediyi kimi, Azərbaycanın dialoq tərəfdarı olduğunu, Ermənistanın qoşunlarını ərazilərimizdən bəlli vaxt çərçivəsində mərhələli şəkildə çıxaracağını elan edəcəyi halda döyüşləri dayandırmağa və danışıqlara başlamağa hazır olduğunu, ancaq Ermənistan baş naziri Nikol Paşinyanın "münaqişənin diplomatik həlli yoxdur" kimi bəyanatlar verməsi və dünya ermənilərini döyüşə səsləməsinin vəziyyəti daha da gərginləşdirməkdən başqa bir işə yaramadığını qeyd edib.

❖ ❖ ❖




Yaponiyanın NHK telekanalı Dağlıq Qarabağda davam edən müharibə barədə xüsusi süjet yayımlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycanla Ermənistan arasında davam edən müharibənin başlamasından artıq bir ay ötdüyü qeyd edilən süjetdə bildirilir ki, ötən dövrdə üç dəfə humanitar atəşkəs elan olunsa da, bunun bir nəticəsi olmayıb.

Xatırladılır ki, Azərbaycanın tərkib hissəsi olan, lakin Ermənistan tərəfindən uzun müddətdir ki, işğal altında saxlanılan Dağlıq Qarabağda döyüşlər sentyabrın 27-də başlanıb.

Qeyd edilir ki, Rusiya iki dəfə, ABŞ isə bir dəfə tərəflər arasında humanitar atəşkəs barədə razılığın əldə olunmasına vasitəçilik etsə də, bu razılaşmalar qısa zamanda aradan qalxıb. ABŞ son olaraq oktyabrın 26-da əldə edilən razılaşmaya vasitəçilik edib.

Süjetdə Azərbaycanın ikinci böyük şəhəri olan və döyüş bölgəsindən təqribən 100 kilometr məsafədə yerləşən Gəncəyə raket zərbələri endirilməsinə xüsusi yer ayrılıb. Azərbaycanlı həkimin bu kanala müsahibəsi geniş işıqlandırılıb. Həkimin sözlərini sitat gətirən telekanal bildirib: "Yatmış uşaqlara hücum Ermənistan silahlı qüvvələrinin nə qədər barbar, vəhşi olduğunu təsdiq edir. Ermənistan ordusu cəbhədə əsgərlərlə döyüşmək əvəzinə mülki insanlara hücum edir".

Süjetdə Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumundan sonra aparılan axtarış-xilasetmə əməliyyatları barədə kadrlara da yer verilib.

❖ ❖ ❖




Lüksemburqun "Delano" portalında bu ölkədə yaşayan azərbaycanlıların əsgərlərimizə dəstək aksiyasına dair məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Lüksemburqda keçirilən aksiyanın soydaşlarımızın ölkəmizə dəstək aksiyalarından biri olduğu və onun Lüksemburq-Azərbaycan Dostluq Assosiasiyası tərəfindən təşkil edildiyi diqqətə çatdırılıb.

Qeyd edilir ki, azərbaycanlılar Lüksemburqun mərkəzi meydanına toplaşaraq Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə yaşayış massivinin Ermənistan tərəfindən raket atəşinə tutulmasına etirazlarını bildiriblər. Qeyd ediblər ki, Ermənistanın mülki əhalini hədəfə alması nəticəsində uşaqlar da daxil olmaqla, 26 dinc sakin həlak olub.

Diqqətə çatdırılıb ki, nümayişçilər əllərində "Gəncə üçün dua edək!", "Azərbaycana ədalət!", "Mülki əhalini bombalamağı dayandır!" və "Uşaqlar müharibə etmir!" kimi plakatlar tutublar.

Bildirilib ki, etiraz nümayişi zamanı meydana uşaq oyuncaqları və ayaqqabıları qoyulub, həlak olan azyaşlıların xatirəsinə şamlar yandırılıb.

❖ ❖ ❖



Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsində Gürcüstan ilə bağlı fikirləri bu ölkənin mətbuatının əsas xəbər başlıqlarına çevrilib. AZƏRTAC xəbər verir ki, report.ge, interpressnews.ge, sputnik-georgia.ru, 24news.ge, apsny.ge, newsday.ge, palitranews.ge informasiya agentlikləri Prezident İlham Əliyevin təkcə "Fox News" kanalına deyil, dünyanın bir sıra aparıcı KİV-inə müsahibələrindən də fikirlər dərc ediblər.

Materiallardan Azərbaycan Prezidentinin bu fikirlərinə xüsusilə önəm verilir: "Mən Cənubi Qafqaz regionunun dərindən inteqrasiya olunmasını, digər Cənubi Qafqaz ölkəsi olan Gürcüstanla strateji münasibətlərimizin gələcəkdə müəyyən vaxtda Azərbaycan və Ermənistan arasında münasibətlər üçün müəyyən mənada örnək ola bildiyini görmək istəyirəm. Çünki bütün müharibələr dayanır və sülh gəlir".